**“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti**

**ƏMR № 14**

**Bakı şəhəri** **30.01.2023-cü il**

“Bakı Fond Birjası” QSC-nin (BFB) Müşahidə Şurasının 19.01.2023-cü il tarixli qərarını (Protokol №01) rəhbər tutaraq

**ƏMR EDİRƏM**

1. Qiymətli kağızların kütləvi təklif üsulu ilə yerləşdirilməsi zamanı anderraytinq xidməti göstərən investisiya şirkət(lər)inə BFB tərəfindən aşağıdakı şərtlər əsasında pul mükafatı verilsin:

1.1 Qiymətli kağızlar korporativ emitentlər (ARİKZF və nizamnamə kapitalında dövlətin mühüm iştirak payı olan emitentlər istisna olmaqla) tərəfindən emissiya olunmaqla fond birjasında kütləvi təklif üsulu ilə yerləşdirildikdə (reallaşdırılmış əqdlər üzrə həcmə əsasən) aşağıdakı məbləğdə mükafat ödənilsin:

- 5 000 000.00 – 10 000 000.00 manat olan səhm emissiyaları üzrə **1500 manat**, istiqraz emissiyası üzrə **1000 manat**;
- 10 000 000.00 manatdan çox məbləğdə səhm emissiyası üzrə **3000 manat**, istiqraz emissiyası üzrə **2000 manat**;
- yerləşdirilmiş səhmlər üzrə kumulyativ olmaqla rüblük əsasda 5 000 000.00 manat və daha çox məbləğdə ticarət həcmi üzrə **1000 manat**.

1.2. Qeyd edilən mükafat birja üzvünə (üzvlərinə) hər bir emitent üzrə yalnız bir dəfə ödənilsin.

1.3. Qeyd edilən mükafatlar yerləşdirilmiş həcm nəzərə alınmaqla hesablansın.

1.4. Xarici valyutada buraxılmış korporativ istiqrazlar üzrə həcmlər manat ekvivalentində nəzərə alınmaqla hesablansın.

2. Bu əmrin 1-ci bəndində qeyd olunan mükafatlandırma təşəbbüsü 31.12.2023-cü il tarixinədək tətbiq edilsin.
3. “Ümumi işlər qrupu”nun rəhbəri L.Qurbanova müvafiq struktur-bölmələri bu əmrlə tanış etsin.
4. “Biznes inkişaf qrupu”nun və “Ticarət və üzvlük qrupu”nun rəhbərləri E.Babayev və M.Yolçiyev bu əmrin icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirsinlər.
5. Bu əmrin 1-ci bəndindən irəli gələn müvafiq qaydada ödəniş tədbirlərinin həyata keçirilməsi “Maliyyə idarəetmə qrupu”nun rəhbəri D.Babayevaya həvalə edilsin.

**İdarə Heyətinin sədri v.m.i.e.**

**Eldar Abdullayev**